Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

N 146
(4370) ÇƏRŞƏNBƏ, 5 İYUL 2006-cı il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan.news.az | Qiyməti 20 qəpik (1000 AZM)

## Moskvada dini liderlərin ümumdünya sammiti keçirilir

İyulun 3-də Moskvada dini liderlərin birinci ümumdünya zirvə toplantısı açılmışdır. Üçgünlük toplantı Rusiya Dinlərarası Şurasının təşəbbüsü ilə çağırılmışdır. Foruma 40 ölkənin 200-dən çox dini lideri gəlmişdir. Forumda Azərbaycanı Qafqaz Müsəlmanları İdarəsinin sədri, Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksi ilə birlikdə Rusiya Dinlərarası Şurasının həmsədri Şeyxülislam Allahşükür Paşazadə təmsil edir.



Birinci gün forumun işində Rusiyanın xarici işlər naziri Sergey Lavrov, RF hökuməti sədrinin müavini Dmitri Medvedev, Azərbaycanın Moskvadakı səfiri Polad Bülbüloğlu, dini konfessiyaların və dövlət qurumlarının nümayəndələri də iştirak etmişlər.

Rusiya Prezidenti Vladimir Putin forumda çıxış edərək demişdir ki, zirvə toplantısı konfessiyalar və dünya xalqları arasında daha sıx dialoq yaradılmasına təkan verəcəkdir. Onun fikrincə, bu dialoqu dünyanın üzləşdiyi yeni təhdidlərə qarşı qoymaq olar. Dünyanı dini və etnik əlamətlər üzrə parçalamağa, ilk növbədə, xristian və müsəlman birliklərinin aralarına rəxnə salmağa cəhdlər göstərildiyini vurğulayan V.Putin sivilizasiyaların münaqişəsinin mümkün nəticələrini və bu qarşıdurmanın nəyə gətirib çıxara biləcəyini dərk etməyə çağırmışdır. Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksinin sədrlik etdiyi forumda İranın, İsrailin dini liderləri və başqaları çıxış etmişlər. Onlar indiki dünyada əxlaqi və mənəvi dəyərlərin yüksəldilməsi ilə bağlı mühüm məsələlərdə mövqeləri uyğunlaşdırmağın, dindən terrorizm və ekstremizm məqsədləri ilə istifadə olunmasına qarşı vahid cəbhə ilə çıxış etməyin zəruriliyindən danışdılar.

Şeyxülislam Allahşükür Paşazadə AzərTAc-ın müxbirinə demişdir ki, dini liderlərin belə mötəbər məclisinin keçirilməsi əlamətdar hadisədir. Bu toplantını keçirmək ideyasını Rusiya Dinlərarası Şurasının həmsədrləri kimi mən və həmkarım patriarx II Aleksi ilə irəli sürmüşdük. Forumun başlıca məqsədi belə bir yekdil fikri dini liderlərə və xalqlara çatdırmaqdır ki, dindən terrorizm və ekstremizm məqsədləri ilə istifadə oluna bilməz, din insanların rifahına xidmət etməli, mənəvi və əxlaqi dəyərlərin yüksəlməsinə təkan verməlidir.

## Allahşükür Paşazadə II Aleksini «Şeyxülislam» ordeni ilə təltif etmişdir

Rusiya Dinlərarası Şurasının təşəbbüsü ilə çağırılmış dini liderlərin birinci Ümumdünya zirvə toplantısı iyulun 4-də Moskvada işini davam etdirmişdir.

40 ölkənin 200-dək ali din xadiminin qatıldığı forumun işinə ikinci gün Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə sədrlik etmişdir.

A.Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin və xalqımızın adından toplantı iştirakçılarına səmimi salamlar yetirmiş və uğurlar diləmişdir.

A.Paşazadə bəşəriyyəti düşündürən ən mühüm problemlərin forumun müzakirəsinə çıxarıldığını vurğulayaraq demişdir ki, buna görə də planetin müxtəlif guşələrində, o cümlədən Qafqazda Moskva sammitinə belə böyük diqqət yetirir və ümidlər bəsləyirlər.

O, Ermənistanın təcavüzünə məruz qalan Azərbaycanın ən ağrılı probleminə toxunaraq, Dağlıq Qarabağ münaqişəsinin ədalətlə nizama salınacağına ümid bəslədiyini söyləmişdir. Şeyxülislam demişdir: "Moskva sammiti xeyir və ədalət kimi humanist prinsiplərə sadiq qalaraq, millətlərarası münaqişələrin layiqincə həllinin əsas prinsipini bəyan etmək haqqına malikdir. Söhbət davakar separatizm və təcavüz, dövlətlərin ərazi bütövlüyünə qəsd siyasətindən əl çəkməkdən, beynəlxalq hüquq normalarına dönmədən əməl etməkdən, qarşı-qarşıya duran tərəflər arasında etimada və qarşılıqlı anlaşmaya nail olmaqdan gedir".

Azərbaycanın dini lideri xüsusi vurğulamışdır ki, hansı məqsəd və şüarlarla həyata keçirilməsindən asılı olmayaraq, terrorizm və zorakılıq birdəfəlik və həmişəlik bəşəriyyətə qarşı cinayət elan edilməlidir.

Sammitdə çıxış edən digər dini liderlər də zorakılığı, terrorizm və ekstremizmi yekdilliklə pisləyərək bildirmişlər ki, dinin bu təzahürləri ilə heç bir əlaqəsi yoxdur. Cəmiyyətdə və ümumən dünyada vəziyyəti ancaq tolerantlıq və dinlərarası dialoq sağlamlaşdıra bilər.

Ümumdünya sammitinin yekun bəyannaməsi Rusiya Prezidenti Vladimir Putinə veriləcəkdir. O, bu sənədi "böyük səkkizliyin" Sankt-Peterburqda keçiriləcək görüşünə təqdim edəcəkdir.

Allahşükür Paşazadə Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksiyə "Şeyxülislam" ordeni təqdim etmişdir. Bu mükafata o, xalqlar arasında sülhə, qarşılıqlı anlaşmaya və həmrəyliyə nail olmağa, tolerantlığın həyat norması kimi bərqərar edilməsinə, millətlərarası münaqişələrin nizama salınmasına yönəldilmiş böyük səylərinə görə layiq görülmüşdür.

***Asya HACIZADƏ,***
***AzərTAc-ın xüsusi müxbiri***
*Moskva*